# Eksponatlar yol üstədir...



Dahi bəstəkarımız Üzeyir Hacıbəylinin ev-muzeyi Bakının Şamil Əzizbəyov küçəsi, 67 ünvanında yerləşir. Bəstəkar həmin ünvanda 27 il – 1915-ci ildən 1942-ci ilə kimi yaşamışdır. Bu qədim mülkün otaqları demək olar ki, bəstəkarın zamanında olduğu kimi qorunub saxlanılmaqdadır. Muzeyə ziyarətə gələn tamaşaçılar burada Üzeyir Hacıbəylinin vaxtilə istifadə etdiyi mebellərdən tutmuş, kiçik məişət əşyalarına qədər bir çox eksponatlarla tanış ola bilərlər. Muzeydə həmçinin bəstəkarın əlyazmaları, notları, şəxsi kitabxanası, əsərlərinin külliyyatı, sənədləri, orden və medalları, vaxtilə ona ünvanlanmış məktublar, teleqramlar və s. qorunub saxlanılır.

Bəstəkarın ev-muzeyi demək olar ki, həm də bir rəsm qalereyasıdır. Burada Üzeyir bəyin müxtəlif rəssamlar tərəfindən həm öz portretləri, həm də ata-anasının, qardaşlarının portretləri yer almışdır.

Musiqisevərlər bəstəkarın ev-muzeyini məbəd adlandırırlar. Bu gün biz dahi bəstəkarın ev-muzeyini yalnız eksponatların qorunub saxlandığı yer deyil, elmi tədqiqat müəssisəsi, maarifçilik məktəbi adlandırsaq, yanılmarıq. Yüzlərlə gənc alim, tələbə, Üzeyir irsinin tədqiqatçıları bu ünvana gələrək muzeyin zəngin fondundan, kitabxanasından, fonotekasından, audio, video disklərindən istifadə edirlər. Muzeydə vaxtaşırı müxtəlif mövzularda tədbirlər keçirilir, tematik sərgilər təşkil olunur. Burada təkcə Üzeyir bəyin deyil, eləcə də digər görkəmli musiqi xadimlərinin, Hacıbəylilər nəslinin tanınmış nümayəndələrinin yubileyləri, xatirə günləri, müasir yazıçıların, alimlərin təqdimat mərasimləri keçirilir. Bütün tədbirlər videolentə alınır, fotoşəkillərdə əbədiləşir və həmin materiallar da muzey fonduna təhvil verilərək, fondun daha da zənginləşdirilməsi ilə nəticələnir.

Qeyd edək ki, bu il noyabr ayının 20-də bəstəkarın ev-muzeyinin yaradılmasının 45 illiyi tamam oldu. Hazırda ev-muzeyi özünün ikinci yüksəliş dövrünü yaşayır. Dahi bəstəkarın ev muzeyinin əməkdaşları onun irsinin göz bəbəyi kimi qorunub gələcək nəsillərə çatdırılması işini müqəddəs borc hesab edirlər.

Oxucuların diqqətinə çatdırmaq istəyirəm ki, bu ocaqda uzun illərdir ki, başqa bir muzeyin də eksponatları qorunub saxlanılır. Bunlar 1992-ci ildə Şuşanın işğalından bir ay əvvəl Hacıbəylilər ailəsinin Şuşadakı ev-muzeyindən Bakıya köçürülüb gətirilmiş eksponatlardır. Əşyaları həmin dövrdə bəstəkarın Şuşadakı ev-muzeyinin direktoru Nəsibə İsmayılova (Eyvazova) Bakıya gətirməyə müvəffəq olmuşdur. 28 ildir ki, bu əşyalar da bizim muzeyimizdə göz bəbəyi kimi qorunub saxlanılır. Eksponatların içində bəstəkarın







skripkası, yazı ləvazimatı, eynəyi, kostyumu, paltosu, qaragül dərili uşaqlıq papağı, ailə albomu, ailəyə məxsus toxucu aləti daha nələr, nələr vardır...

Burada vaxtilə Üzeyir Hacıbəylinin Şuşadakı ev-muzeyinə avtoqrafla hədiyyə edilmiş kitablar qorunur. Müxtəlif illərdə Şuşadakı ev-muzeyinə təqdim olunmuş bu kitablarda Süleyman Ələsgərovun, Səid Rüstəmovun, Elmira Abbasovanın, Firudin Şuşinskinin, Hökümə Nəcəfovanın və başqalarının imzalarına rast gəlmək mümkündür.

Əşyalar arasında şüşə qabın içində saxlanılan bir ovuc torpaq tamaşaçıların hər zaman ürəyini riqqətə gətirmişdir. Bu, Üzeyir Hacıbəylinin ev-muzeyinin həyətindən götürülmüş Şuşa torpağıdır. O torpaq ki, muzeyə ziyarətə gələn neçə-neçə şuşalı şüşə qaba əllərini sürtərək Şuşa həsrətlərini sanki bu yolla ovutmaq istəmişlər.

Bu gün isə 28 il doğma yurdundan ayrı düşmüş bu eksponatlar yol üstədir. Tezliklə onlar Şuşadakı ev-muzeyinə qovuşacaqlar. İnanırıq ki, dahi bəstəkarımızın Şuşadakı ev-muzeyi yeniləşərək daha zəngin, dünya standartlarına cavab verən möhtəşəm bir muzey olacaqdır. O gün çox uzaqda deyildir. O günü bizə cənab Prezident, Ali Baş Komandan İlham Əliyev və şanlı Azərbaycan ordusu bəxş elədi!

Mərhum şairimiz Süleyman Rüstəm sanki Azərbaycanın bugünki zəfər günləri barədə yazıb:

***Alqış, yenə alqış!***

*Alqış, Qarabağ, səndəki bu qüdrətə alqış,*
*Tarix boyu alnındakı ülviyyətə alqış!*

*Oğlun da, qızın da dağı dağ üstə qoyurlar,*
*Onlardakı bu sevgiyə, bu zəhmətə alqış!*
*Sən, şöhrəti dildən-dilə düşmüş Üzeyirtək-*
*Övlad yetiribsən, belə bir şöhrətə alqış!*

*Ustad Üzeyir! Dinlə məni bu xoş günündə,*
*Alqış, sənə ilham verən hürriyyətə alqış!*

*Sönməz həvəsin nağmələrin nağməsi oldu,*
*Nəbzindəki dostluqla vuran sənətə alqış!*

*Yol açdı səninçün Şuşamız kürreyi-ərzə,*
*Alqış ulu xalqındakı bu qeyrətə alqış!*

*Təkrar, yenə alqış yenə alqış deyirəm mən,*
*Dahi Üzeyir bəy yetirən millətə alqış!*

**Gülnarə Ələsgərova**
Üzeyir Hacıbəylinin ev-muzeyinin ekspozisiya və kütləvi işlər şöbəsinin müdiri